**UOT 911.3**

# QUBA-XAÇMAZ İQTİSADİ-COĞRAFİ RAYONUNDA (İCR) XİDMƏT SAHƏLƏRİNİN VƏ NƏQLİYYATIN ƏRAZİ ÜZRƏ TƏŞKİLİNİN COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

**[1]HƏSƏNOV TAPDIQ GÜLƏHMƏD oğlu**
**[2]ALLAHVERDİYEVA SAHİLƏ ƏBİŞ qizi**
**[3]MURSAQULİYEV COŞQUN ƏMİRƏDDİN oğlu**
*Bakı Dövlət Universiteti,1- professor,2-baş müəllim, 3-magistrant*
*e-mail: sahila.allahverdiyeva@mail.ru*

***Açar sözlər:*** *Quba, Xaçmaz, region, rekreasiya, turizm, nəqliyyat, əhali, xidmət.*

Azərbaycan Respublikasının zəngin bölgələrindən sayılan Quba-Xaçmaz iqtisadi rayonu Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarının ərazisini əhatə etməklə, Azərbaycanın şimal-şərqində - Böyük Qafqaz dağlarının şimal-şərq yamacında yerləşir. İqtisadi rayonun ərazisinin ümumi sahəsi 6,96 min $km^2$ olmaqla, ölkə ərazisinin 8,03 %-ni təşkil edir. İqtisadi rayonda əhalinin sayı 525,7 min nəfərdir ki, bu da ölkə əhalisinin 5,17 %-ni təşkil edir. İCR-də əhalinin məşğulluq səviyyəsi kənd təsərrüfatında 58,5 %, sənayedə 4,3 %, tikintidə 8,3 %, nəqliyyyatda 4,5%, xidmət sahəsində 21,9%, digər sahələrdə 2.5% təşkil edir. Əhalinin məşğulluğunda kənd təsərrüfatından sonra ikinci yer xidmət sahələrinə məxsusdur. İqtisadi rayonda xidmət sahələri üzrə çalışanların sayı 51,6 min nəfərdir, onlar məşğul olanların 21,9 %-ni təşkil edir. Xidmət sahələrinin ayrı-ayrı sferalarında məşğul olan əhalinin bölgüsü də müxtəlifdir [1].

Əhalinin normal yaşamasını və təsərrüfat fəaliyyətini hərtərəfli təmin edən xidmət sahələri mənzil-kommunal təsərrüfatı, məişət xidməti, mədəni-maarif müəssisələri, rabitə, səhiyyə, təhsil, ticarət və ictimai-iaşə, nəqliyyat sahələri və kurort-rekreasiya ilə təmsil olunmuşdur [3].

Quba-Xaçmaz İCR-də xidmət sahələrində ayrı-ayrı inzibati rayonlarda müxtəlif sahələr üzrə məşğul olan əhalinin sayında müəyyən fərqlər vardır. Belə ki, xidmət sahələri ilə məşğul olan əhalinin sayına görə Xaçmaz rayonu irəlidə gedir, burada 18455 nəfər bu sahə ilə məşğul olur. Əhalinin mütləq sayı da xidmət sahələrində məşğul olanların sayına təsir göstərir, belə ki, mütləq əhali sayına nisbətdə bu, Siyəzən rayonunda daha yüksəkdir, onların payı 26,5 %, yəni 4287 nəfərdir. Əhaliyə göstərilən xidmət sahələri arasında məşğul olanların əsas hissəsi kurort-rekreasiya, təhsil, ticarət, səhiyyə və dövlət idarəetmə sahələrində çalışır[2].

Quba-Xaçmaz iqtisadi rayonunda hal-hazırkı dövrdə əhalinin yaşayışını və təsərrüfat fəaliyyətini hərtərəfli təmin edən xidmət sahələrinin durumuna, xidmət səviyyəsinə nəzər yetirək. Əhalinin sosial və mənəvi rahatlığı üçün *mənzil-kommunal xidmətlərinin* düzgün təşkil edilməsi mühüm əhəmiyyət kəsb edir. Quba-Xaçmaz iqtisadi rayonunda mənzil tikilməsi dövlət və şəxsi vəsaitlər hesabına həyata keçirilir. 2015-ci ilin statistik məlumatına görə, iqtisadi rayonun bütün mənzil fondunun ümumi sahəsi 10467,5 min $m^2$ təşkil etmişdir. 2010-cu illə müqayisədə bu göstərici 429,3 min $m^2$ artmışdır. Orta hesabla regionda hər bir sakinə düşən yaşayış sahəsi 19,9 $m^2$-dir.

***Kommunal xidmətlər*** arasında əhalinin elektrik enerjisi, su, qaz, kanalizasiya və rabitə ilə təmin olunması əsas göstəricilərdir. Əhalinin su ilə təminatında Samur-Abşeron kanalı ilə yanaşı, yerli bulaqlar da əsas yer tutur. 2014-cü ildə təbii mənbələrdən götürülən şirin su 712,9 mln $m^3$ olmuşdur. Bunun da 132,7 mln $m^3$-i nəql edilərkən itkiyə verilmişdir. Təbii mənbələrdən götürülən suların yalnız 296,6 mln $m^3$-i istifadə edilir ki, onun da 5,6 mln $m^3$-i məişət-içməli su ehtiyalarında, 0,4 mln $m^3$-i istehsalatda, 289,3 mln $m^3$-i isə suvarma və kənd təsərrüfatında istifadə olunmuşdur.

Ərazidə əhaliyə sosial xidmətin ən mühüm sahələrindən biri *əhaliyə məişət xidmətinin* göstərilməsidir. Bu sahənin inkişafına və genişlənməsinə xüsusi diqqət verilməlidir. Quba-Xaçmaz iqtisadi rayonunda şəhərlə qəsəbələr, rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri arasında məişət xidmətində böyük fərqlər mövcuddur. Ərazidə məişət xidməti fərdi paltar tikişi, bərbərxana, mebellərin təmiri və hazırlanması, nəqliyyat vasitələrinə texniki xidmət, kimyəvi təmizləmə, məişət cihazlarının təmiri, ayaqqabı təmiri və s. sahələrdən ibarətdir.

İqtisadi rayonda inzibati rayonlar üzrə əhaliyə məişət xidmətində göstəricilər fərqlidir. Məişət xidmətinin 70 %-dən çoxu Xaçmaz və Quba rayonlarının payına düşür. Adambaşına bu göstərici Xaçmaz və Qusar rayonlarında daha yüksəkdir.

***Mədəni-maarif müəssisələri*** iqtisadi rayonda kitabxanalar, klublar, kinoqurğular, muzey və digər sahələrlə təmsil olunur. 2014-cü ilin statistik məlumatına görə, Quba-Xaçmaz iqtisadi rayonunda 272 kitabxana fəaliyyət göstərmişdir. Orada olan kitab və jurnalların sayı 1921,5 min nüsxə təşkil edir. Bu da hər 1000 sakinə orta hesabla 3655 nüsxə deməkdir. Ərazidə olan ümumi kitabxanaların 62%-i Quba və Xaçmaz inzibati rayonlarının payına düşür. Ərazidə 240 klub və 11 muzey fəaliyyət göstərir. Buraya gələnlərin sayı isə 97 min nəfərdir[2]. 2014–2018-ci illər regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində mədəniyyət obyektlərinin əsaslı təmiri, tikintisi, tarix-mədəniyyət abidələrinin bərpası və konservasiyası sahəsində işlərin davam etdirilməsi nəzərdə tutulmuşdur [7].

***Ticarət xidməti*** əhalinin maddi tələbatının ödənilməsində müstəsna rol oynayır. Digər xidmət növlərindən fərqli olaraq, son illər ərazidə ticarət şəbəkəsi xeyli inkişaf etmişdir. İstər ayrı-ayrı ticarət mallarının növlərinə, istərsə də əhaliyə göstərilən xidmətin çeşidinə görə ticarət xidməti inkişaf etməkdədir. Rayon mərkəzlərində və qəsəbələrdə bütün tələblərə cavab verən mağazalar və ticarət mərkəzləri fəaliyyət göstərir. Bu xidmət obyektləri yerlərinin sayına və xidmət səviyyəsinə görə bir-birindən fərqlənir. Ümumiyyətlə götürdükdə isə, ticarət müəssisələrinin 75%-i şəhər və qəsəbələrdə, 25%-i isə kənd yaşayış məntəqələrində yerləşir. Son illər statistikaya baxdıqda kənd və qəsəbələrdə ticarət obyektlərinin sayının artmasını müşahidə etmək olar. Belə ki, yüksək dağ kəndlərində ticarət xidməti tələblərə cavab verməsə də, son illərdə bu ərazilərdə də ticarət xidmətinin inkişafı istiqamətində irəliləyişlər müşahidə olunmaqdadır.

***Təhsil sistemi*** əhalinin savadlanması-maariflənməsində və ideya-siyasi aləminin zənginləşməsində mühüm yer tutur. İqtisadi rayonda xalq təhsil şəbəkəsi məktəbə-qədər müəssisələr, orta məktəblər, liseylər, kolleclər və institut kimi sahələrlə təmsil olunur. Quba-Xaçmaz iqtisadi rayonunda məktəbəqədər uşaq müəssisələrinin sayı 61, orada oxuyan uşaqların sayı isə 2800 nəfərdir. 2015-ci il 01 yanvar statistik göstəricilərinə əsasən iqtisadi rayonda 418 ümumi təhsil məktəbi fəaliyyət göstərir. İqtisadi rayonda olan ümumtəhsil məktəblərinin 84%-i Quba, Qusar və Xaçmaz inzibati rayonlarında yerləşir.

Rayon mərkəzləri və qəsəbələrdəki məktəblər müasir maddi-texniki təchizatla təmin olunduğu halda, bəzi kənd məktəbləri müasir tələblərə cavab verməyən darısqal binalarda yerləşir. Son illərdə də Quba-Xaçmaz iqtisadi rayonunun bir sıra ucqar kəndlərində, həmçinin digər kənd və qəsəbələrində yeni məktəblərin açılması və köhnəlmiş məktəb binalarının təmiri istiqamətində müəyyən işlər görülür. İqtisadi rayonda təhsilə ən böyük töhvələrdən biri də 2015-ci ildə Prezident İlham Əliyevin Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə birləşdirilməsi barədə sərəncamı olmuşdur. Bu sərəncam ilə Azərbaycan Müəllimlər İnstitutunun rayonlardakı filialları, uyğun olaraq Quba filialı Azərbaycan Dövlət Pedaqoji Universitetinin filialı hesab olunmuşdur. Nəticədə, iqtisadi rayonda dövlət univer-sitetinin filialının yaradılması təhsilə marağın artmasına, eyni zamanda region əha-lisinə kənara çıxmadan eyni səviyyəli təhsilin əldə edilməsi üçün şərait yaradılır[5].

***Səhiyyə xidməti*** iqtisadi rayonda inkişaf etmiş əsas sahələrdən biridir. Səhiyyə xidməti dedikdə ərazidə mövcud olan xəstəxana, ambulator-poliklinika, təcili tibbi xidmət müəssisələri, aptek, əhaliyə tibbi xidmət göstərən həkim və orta tibb işçiləri nəzərdə tutulur. İqtisadi rayonda

əhaliyə xidmət göstərən həkimlərin sayı 722 nəfər təşkil edir. İqtisadi rayonda olan həkimlərin 28%-i Xaçmaz inzibati rayonunda cəmlənmişdir. Son illər Xaçmaz inzibati rayonunda Mərkəzi xəstəxananın müasir standartlara uyğun təmiri həyata keçirilmişdir. İqtisadi rayonun səhiyyə xidmətindən danışarkən qeyd etmək lazımdır ki, iqtisadi rayonun dağlıq ərazilərində yerləşən tibb müəssisələrində kadr çatışmazlığı müşahidə olunur. Bu məsələ ilə əlaqədar olaraq diferensial əmək haqqı sisteminin tətbiqi və tibbi kursların açılması məqsədəuyğun olardı[4].

Həm yerli, həm də xarici turizm üçün potensial region olan Quba-Xaçmaz iqtisadi rayonunun sosial-iqtisadi inkişafında Xəzər dənizi boyunca yerləşən *kurort-rekreasiya sahələrinin* inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. Regionda turizm sahəsini beynəlxalq səviyyəyə qaldırmaq üçün bütün imkanlar vardır. Bölgənin turizm ehtiyatları zəngin və perspektivlidir. Xəzər sahili boyu dağlıq ərazilərdə turizm inkişaf etdirilir. Burada xidmət müəssisələri geniş yayılmışdır. Turizmin inkişafı təkcə onun yüksək gəlir gətirməsi ilə məhdudlaşmır, həmçinin sosial problemlərin həllində, işsizliyin aradan qaldırılmasında, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Hazırda respublikada xarici turistlərə xidmət göstərə bilən otellər və istirahət mərkəzləri Yalama-Nabran bölgəsində daha çox cəmlənir. Xaçmaz inzibati rayonu ərazisinə aid edilən Nabran yaşayış massivi respublikadaxili, qismən də xarici turizmin inkişafında xüsusi yer tutur[6]. Şahdağ Milli Parkı, Təngəaltı dərəsi, Afurca şəlaləsi, "Quba" istirahət mərkəzi, "Balbulaq", "Cənnət bağı" istirahət zonaları (Quba), Yalama və Nabranın qumlu çimərlikləri təbiətsevərləri istirahətə cəlb edir. Regionda fəaliyyət göstərən Qalaaltı sanatoriyası Şabran şəhərinin 45 km-də, dəniz səviyyəsindən 600 m yüksəklikdə fəaliyyət göstərir. Burada hər il orta hesabla böyrək xəstəliyindən əziyyət çəkən 5 mindən çox insan müalicə olunur. Əgər sərmayə qoyulsa, yerli və xarici turistlər Qəçrəş istirahət zonasından il boyu yararlana bilərlər. Regionda tarixi abidələrin olması burada mədəni turizmin inkişaf etdirilməsinə də əlverişli şərait yaradır. Beşbarmaq qayası və müdafiə səddinin qalıqları, türbələr (Siyəzən), Şabran, Gilgil-çay istehkamlar kompleksi, Çıraqqala (Dəvəçi), Cümə məscidi (Quba) və b. maraqlı tarixi-memarlıq abidələridir[5].

Dağlıq ərazilərdə isə yalnız Qusar inzibati rayonunda Şahdağ dağ turizm və alpinizm istirahət mərkəzi fəaliyyət göstərir. "2014–2018-ci illər regionların sosial-iqtisadi inkişafı dövlət proqramı" çərçivəsində turizm sahəsinin inkişafının dəstəklənməsi, o cümlədən Qusar rayonunda "Şahdağ" turizm kompleksinin infra-strukturunun tikintisinin davam etdirilməsi nəzərdə tutulmuşdur[7].

Regionun turizm-rekreasiya şəbəkəsini daha da inkişaf etdirmək üçün, ilk növbədə, xidmətin keyfiyyətinin yüksəldilməsi yönümdə işlər aparılmalıdır. Bunun üçün də regionda qeyd edilən sahədə ixtisaslı kadr hazırlığı üçün təhsil müəssisələri, filiallar, ixtisasartırma kursları və s. yaradılması məqsədəuyğun olardı. Bu həm də iqtisadi rayonun əhalisinin məşğulluğuna da müsbət təsir etmiş olar. Bundan əlavə, iqtisadi rayonun ərazisində Xəzərsahili xeyli boş ərazilər hələ də qalmaqdadır ki, bu ərazilərdə çimərlikləri genişləndirmək, istirahət mərkəzləri yaratmaq olar. Bu işlərin həyata keçirilməsi üçün ilk növbədə, kiçik və orta sahibkarlığa dəstək əsas şərtdir.

***Nəqliyyat.*** Quba-Xaçmaz iqtisadi rayonu əlverişli nəqliyyat coğrafi mövqeyinə malikdir, Bakı-Rostov magistral dəmir və avtomobil yolları üzərində yerləşir. Həmçinin rayondaxili və rayonlararası iqtisadi əlaqələri inkişaf etdirmək üçün çox əlverişli imkanlara malikdir. Bildiyimiz nəqliyyat hər bir ərazidə xidmət sahələrinin inkişafında, əhalinin sosial və təsərrüfat fəaliyyətini həyata keçirməsində əsas amildir. Ərazinin dağlıq şəraitə malik olmasına baxmayaraq, əhalinin məskun-laşmasında, şəhər və kənd yaşayış məntəqələrinin formalaşmasında nəqliyyat əsas sosial-iqtisadi amillərdən biri kimi böyük əhəmiyyət kəsb edir. Ərazidə dəmir yollarının ümumi uzunluğu 123 km olub, bunun 62 km-i və ya 50,5%-i Şabran, Siyəzən, 61 km-i və ya 49,5%-i isə Xaçmaz inzibati rayonunun payına düşür. Respublika üzrə ümumi dəmiryolunun 7,4%-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşür. Bakı-Xaçmaz-Dərbənd avtomobil və dəmiryol xətləri bu iqtisadi rayonun ərazisindən keçir. Onu qeyd etmək lazımdır ki, dəmir yolundan və stansiyalardan uzaqlaşdıqca əhalinin məskunlaşma səviyyəsi zəifləyir, kənd yaşayış məntəqələri seyrəlir[8].

Quba-Xaçmaz iqtisadi rayonu üzrə yüklərin və sərnişinlərin daşınmasında avtomobil nəqliyyatı dəmiryolundan sonra ikinci yeri tutur. Respublika üzrə avtomobil yollarının 7,9%-i bu iqtisadi rayonun payına düşür. Azərbaycanı Rusiya Federasiyası ilə birləşdirən kommunikasiya xətti bu regiondan keçir. Digər nəqliyyat növlərindən fərqli olaraq, avtomobil nəqliyyatı yüksək manevretmə və yükləri tez çatdırma qabiliyyətinə malikdir. İqtisadi rayonda avtomobil yollarının ümumi uzunluğu 1883 km-dir. Bu iqtisadi rayonun ərazisindən keçən tranzit yük və sərnişin dövriyyəsi 2005-ci illə müqayisədə 2015-ci ildə müvafiq olaraq 93% artmışdır. Bunun da səbəbi Şimal-Cənub istiqamətində daşınan yüklərin məhz bu ərazidən keçməsidir[1].

2014–2018-ci illər regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində yerli əhəmiyyətli avtomobil yollarının tikintisinin, yenidən qurulmasının və əsaslı təmirinin davam etdirilməsi nəzərdə tutulmuşdur[7].

Əhaliyə xidmət göstərən ən mühüm sahələrdən biri də *rabitədir*. Son illər rayon mərkəzlərinin və bir çox kənd və qəsəbələrin rabitə müəssisələrində qurulmuş komputerlər, modem və ödəniş terminalları vasitəsilə rabitə xidmətlərinə görə abunəçilərlə bütün növlər üzrə hesablaşmalar, pul göndərişləri və teleqram xidmətləri həyata keçirilir.

“Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına uyğun olaraq, Bakı şəhəri və bölgələrin regional inkişaf planları hazırlanır. Bunlardan biri ölkənin şimal-şərq hissəsi – Quba-Xaçmaz iqtisadi rayonunu əhatə edir. Belə ki, bu iqtisadi rayon üzrə məskunlaşma, təbiətdən istifadə və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi artıq hazırlanıb. Plana əsasən Quba-Xaçmaz iqtisadi rayonu iki dövrdə: 2018-ci ilədək (I növbə) və 2030-cu ilədək (layihə dövrü üçün) sosial-iqtisadi inkişafın bütün sahələri üzrə yüksək inkişaf dövrünü keçəcək. Əlbəttə, ki, regionun sosial-iqtisadi inkişafının təmin edilməsi zamanı əsas diqqət təsərrüfat sahələrinin inkişafına, əhalinin həyat səviyyəsinə ciddi təsir göstərən xidmət sahələrinin təşkilinə yönəldilməlidir [9].

Xidmət sahəsində əldə olunmuş nailiyyətlər birbaşa əhalinin sosial rifahı, gəlirlərinin artması ilə bağlıdır. Aparılmış tədqiqatlara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, xidmət bazarı regionda ən dinamik inkişaf edən sahələrdəndir. Quba-Xaçmaz İCR-də xidmət sferasının inkişaf perspektivlərini tədqiq edərək aşağıdakıları qeyd etmək olar:

-pullu xidmət sistemi sürətlə inkişaf etməkdədir. Pullu xidmətlərin göstərilməsi təmayüllərinin güclənməsi və, xüsusilə də, səhiyyə, təhsil, rabitə xidmətlərinin sürətli inkişafı müşahidə olunur;

-bazar sisteminin formalaşması və inkişafı şəraitində əlaqələndirici halda kimi ticarətin rolu yüksəlir. Bu təsərrüfat sferasının inkişafı perspektivlidir və güclü imknlara malikdir;

-regionda uyğun təbii şəraitin olması və istirahət sahəsinin inkişafı hesabına turizm və müalicə-kurort xidmətlərinin həcminin yüksəlməsi perspektivləri mövcuddur;

-göstərilən xidmətlərin sturukturunda da xeyli dəyişikliklər baş verir. İnformasiyaya tələbat artdığı üçün informasiya və konsaltinq(məsləhət) xidmətlərinin xüsusi çəkisi də artır;

-yeni xidmətlərə tələbatların yaranması xidmət sferasının inkişafına səbəb olacaq və xidmət sferasının regionun iqtisadiyyatında xüsusi çəkisini artıracaq ki, bu da regionda əhalinin sosial rifah halını daha da artıracaq.

## ƏDƏBİYYAT

1. Azərbaycan regionları. Bakı: DSK, 2015, 834 s.
2. İmrani Z.T. Quba-Xaçmaz İqtisadi Rayonu. Bakı: Elm, 2007, 170 s.
3. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. V.Ə.Əfəndiyevin baş redaktorluğu ilə. Bakı: Bakı Universiteti, 2010, 470 s.
4. Azərbaycan Respublikasının Coğrafiyası: II cild. İqtisadi, siyasi və sosial coğrafiya. Bakı, 2015, 328 s.
5. Regional coğrafiya: III cild. Bakı, 2015, 400 s.

6. Quba-Xaçmaz İCR üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi (II kitab). Bakı: Renessans Studio, 2012, 274 s.
7. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı: DSK, 2015, 218 s.
8. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008-ci il, 2009-2013-cü il , 2014-2018-ci il);
9. Azərbaycanın nəqliyyatı. Bakı: DSK, 2015, 140 s.
10. Azərbaycan 2020: Gələcəyə Baxış. İnkişaf Konsepsiyası. 39 s.
11. Həsənov T.G. İqtisadi-coğrafi rayonlaşdırma. Bakı: Bakı Universiteti, 2012, 245 s.

**РЕЗЮМЕ**

**ГЕОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ ОТРАСЛЕЙ ОБСЛУЖИВАНИЯ И ТРАНСПОРТНОЙ ИНФРАСТРУКТУРЫ МЕСТНОСТИ В ЭГР-нах ГУБА-ХАЧМАЗСКОГО РАЙОНА**

***Гасанов Т.Г., Аллахвердиева С.А., Мурсагулиев Д.А.***

***Ключевые слова:*** *Азербайджанская Республика, Губа, Хачмаз, регион, население, сфера услуг, коммунальные услуги, образование, здравоохранение, рекреация, туризм, транспорт.*

В статье анализируются отрасли обслуживания и организации транспортной инфраструктуры местности в районах Губа-Хачмаз, и всесторонне исследуется деятельность населения в отраслях обслуживания. В работе находит отражение транспортная система региона в современную эпоху и особый вес каждого вида транспортного средства в перевозке грузов, а также исследованы и показаны перспективы развития сфер обслуживания районов.

**SUMMARY**

**GEOGRAPHICAL FEATURES OF SERVICE FIELDS AND TERRITORIAL ORGANIZATION OF TRANSPORT IN GUBA-KHACHMAZ REGION**

***Hasanov T.G., Allahverdiyeva S.A., Mursaguliyev C.A.***

***Keywords*:** *Azerbaijan Republic, Guba, Khachmaz, region, population, service fields, communal service, education, health, recreation, tourism, transport.*

Service fields and traffic infrastructure and landed property, people’s activity in different service areas in Guba-Khachmaz region is analysed in this article. Nowadays region’s traffic system and amount of each cars in freightage is shown in this work and also region’s service sphere and perspectives of development is investigated and shown.

Daxilolma tarixi: İlkin variant 23.11.2016
Son variant